# “YAŞAT” düşərgəsinin üçüncü həftəsi başa çatıb

“YAŞAT” Fondunun və “ASAN Könüllüləri” Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən “YAŞAT” düşərgəsinin üçüncü həftəsi başa çatıb.








Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, düşərgənin beşinci günündə ilkin olaraq səhər idmanı və psixoloqlarla görüş təşkil edilib.

Sonra düşərgənin başa çatması ilə əlaqədar iştirakçılara sertifikatlar təqdim olunub.

Gün ərzində iştirakçılar düşərgəni qiymətləndirdikdən sonra onlar üçün hovuz əyləncəsi təşkil edilib. Həmçinin şəhidimiz Elvin İsgəndərovun qızı Nuray İsgəndərovanın doğum günü ilə əlaqədar uşaqlar çay süfrəsi ətrafında bir araya gəliblər.

Düşərgənin üçüncü həftəsi də şəhidlərimizin 8-11 yaş kateqoriyasında olan övladlarını əhatə edib.

İyulun 12-dən şəhid övladları üçün başlayan yay düşərgələri avqustun sonuna qədər davam edəcək. Ümumilikdə, 300-dək uşağı əhatə edəcək 6 düşərgənin həyata keçirilməsi nəzərdə tutulub. Hər düşərgə, ümumilikdə, 6 gün 5 gecəni əhatə edəcək.

Düşərgə ərzində uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, tanınmış şəxslər, peşəkarlar, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər, konsultasiyalar və müğənnilərin iştirakı ilə konsert proqramının keçirilməsi nəzərdə tutulub.

Həmçinin tərəfdaşlar tərəfindən iştirakçılara müxtəlif hədiyyələr təqdim edilib.

Düşərgə boyunca uşaqlar sığortalanmış olacaqlar və davamlı olaraq həkim nəzarəti və psixoloqlar tərəfindən müşayiət olunacaqlar. Psixoloqlar tərəfindən art və rəqs terapiyalar keçiriləcək, o cümlədən baş tutacaq fərdi və kollektiv görüşlər, konsultasiyalar zamanı aşkarlanmış problemlər üzrə müalicəyə ehtiyacı olan uşaqlar müəyyənləşdiriləcək və fond tərəfindən düşərgədən sonra müalicə prosesinə cəlb olunacaqlar.

Düşərgənin media dəstəkçiləri Azərbaycan Televiziyası (AzTV), İctimai Televiziya (İTV) və “ASAN Radio”dur.

Düşərgənin baş sponsorları “Lankaran springs” hotel, “PMD Hospitality”dir.

Sponsorlar “Elektron Hökumətin İnkişafı Mərkəzi”, “İnnovasiyalar Mərkəzi”, “PAŞA Həyat”, “Bravo”, “Nar”, “Gazelli Group”, “Rabitəbank”, “Turanbank”, “Decoria”, “Port of Baku”, “AMO Group”, “Slavyanka”, “Azərsun”, “Shokki Mokki”, “Mango”, “Next”, “Əli və Nino”, “Oven”, “Civil”, “Happy day cake”, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), “Gənc Psixoloqlar” İctimai Birliyi, logistika dəstəyi Bakı Nəqliyyat Agentliyidir.

Azərbaycan.- 2021.- 8 avqust.- S. 3.